# İLLİK hesabat

# 2018

azpromo

Azerbaijan Export & Investment Promotion Foundation

2018





“Made in Azerbaijan” brendini dünyada tanıtdırmaq üçün praktiki addımlar atılır. Artıq bu brend bu gün dünyada şöhrət qazanır. Əlbəttə ki, dövlət tərəfindən təşkil edilmiş sərgilər və o sərgilərdə sahibkarların iştirakı gözəl nəticələrə gətirib çıxarır.

Azərbaycan Respublikasının Prezidenti

İlham Əliyev



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi strateji xəttə uyğun olaraq, dayanıqlı iqtisadi inkişafın təmin olunması məqsədilə çevik və adekvat addımlar atılır, kompleks islahatların həyata keçirilməsi nəticəsində makroiqtisadi sabitlik möhkəmlənir, biznes və investisiya mühiti yaxşılaşır, iqtisadiyyat şaxələnir, ölkə regionları və sahibkarlıq inkişaf edir, qeyri-neft ixracının həcmi, çeşidi və coğrafiyası genişlənir.

Sahibkarlığın inkişafı, qeyri-neft sektoruna xarici investisiyaların cəlb olunması, ixracın stimullaşdırılması və digər istiqamətlərdə AZPROMO-nun fəaliyyəti diqqətə layiqdir. "Made in Azerbaijan" brendinin təşviqi və ölkənin ixrac imkanlarının artırılmasında AZPROMO tərəfindən görülən işlər və həyata keçirilən tədbirlər xüsusi ilə qeyd edilməlidir.

Hesab edirəm ki, AZPROMO-nun illik fəaliyyətini əks etdirən bu nəşr Azərbaycanda sahibkarlığın inkişafı və investisiyaların cəlb olunması ilə maraqlananlar üçün faydalı olacaq. Əminəm ki, gələcəkdə də AZPROMO ölkə iqtisadiyyatının inkişafı istiqamətində iş adamlarına dəstəyini davam etdirəcəkdir.

İqtisadiyyat Naziri

Şahin Mustafayev

# MÜNDƏRİCAT


səhifə 10 AZPROMO

səhifə 13 Made in Azerbaijan

səhifə 16 Beynəlmiləşmə

səhifə 24 Beynəlxalq sərgi və yarmarkalar

səhifə 34 Ticarət və Şərab Evləri

səhifə 41 İxrac Missiyaları

səhifə 47 İxrac Təşviqinin geri ödənilməsi

səhifə 49 Bazar Araşdırması

səhifə 50 İxracatçılar Klubu

səhifə 52 Yerli İstehsalçıların və İxracatçıların Assosiasiyaları

səhifə 54 Yeni Tərəfdaşlıq Əlaqələrin Qurulması

səhifə 55 İqtisadi göstəricilər

azpromo

Azerbaijan Export & Investment
Promotion Foundation

2003-cü ildə İqtisadiyyat Nazirliyi tərəfindən yaradılan Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) qeyri-neft sektoruna xarici investisiyaların cəlbi və qeyri-neft məhsullarının ixracının stimullaşdırılması məqsədilə fəaliyyət göstərir.

AZPROMO Azərbaycanın investisiya mühiti haqqında ətraflı məlumat toplamaq istəyən və investisiya yatırmaqda maraqlı olan xarici şirkətlərə "vahid pəncərə" funksiyası əsasında xidmət göstərir və dəstək verir. Eyni zamanda, AZPROMO  xarici bazarlara daxil olmağa çalışan yerli şirkətlərin də sadiq tərəfdaşıdır. Geniş xarici nümayəndəliklər və tərəfdaşlar şəbəkəsi hesabına, AZPROMO xarici bazarlara və orada tətbiq olunan ticarət tənzimləmələri haqqında geniş biliklərə malikdir. Bu AZPROMO-ya yerli şirkətlərin ixrac qabiliyyətliliklərini artırmaq üçün  əlverişli imkanlar təklif etməyə şərait yaradır.

Çox şaxəli beynəlxalq şəbəkə sisteminə sahib olan AZPROMO İnvestisiya Təşviqi Agentliklərinin Dünya Assosiasiyasının üzvüdür və hal-hazırda assosiasiyanın vitse-prezidentlik statusuna malikdir. Avstriya və İtaliyada  yerləşən və Bakıdakı mərkəzdən koordinasiya olunan beynəlxalq nümayəndəliklər müştərilərə yerində və qısa zaman çərçivəsində xidmət göstərir.  AZPROMO bir çox investisiya təşviqi agentlikləri, ticarət və sənaye palataları və digər müvafiq institutlar ilə sıx əlaqələr formalaşdırmışdır. Dünyanın 44 ölkəsindən 100-dən çox təşkilat ilə əməkdaşlıq və tərəfdaşlıq memorandumları qüvvədədir.



MADE IN
AZERBAIJAN



MADE IN
AZERBAIJAN

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2016-cı ilin 5 oktyabr tarixində yerli qeyri-neft məhsullarının **"Made in Azerbaijan"** adı altında xarici bazarlarda genişmiqyaslı təbliğini nəzərdə tutan Fərman imzaladı. Bu Fərman "Made in Azerbaijan" brendinin ölkə xaricində tanıdılması və ixracın stimullaşdırılması məqsədilə **11** fərqli mexanizmi – dəstək tədbirini əhatə edir.




1 İxrac missiyaları

2 Azərbaycan ərazisinə alıcı missiyalarının təşkili

3 İxrac təşviqinin ödənilməsi

4 Bazar araşdırması

5 Beynəlxalq sərgi və yarmarkalarda vahid ölkə stendi ilə iştirak

6 Beynəlxalq sərgi və yarmarkalarda fərdi qaydada iştirak

7

Dövlət mülkiyyətində olan və ya səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər vasitəsilə "Made in Azerbaijan" brendinin təşviqi

8

Xarici ölkələrdə fəaliyyət göstərən mağazalarda və ya mağaza şəbəkələrində, o cümlədən "Duty Free"lərdə "Made in Azerbaijan" rəflərinin təşkili

9

Xarici ölkələrin ictimai yerlərində və beynəlxalq KİV-də təbliğat

10

"Beynəlxalq sertifikat"ın alınması

11

Tədqiqat-inkişaf proqram və layihələri



# Beynəlmiləşmə

## ▪ Biznes forumlar

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) tərəfindən ölkəmizin investisiya və ixrac imkanlarının təşviqi istiqamətində fəaliyyətini uğurla davam etdirilir. Yerli şirkətlərin biznes əlaqələrinin daha da genişləndirilməsi və ölkə iqtisadiyyatına investisiya qoyuluşunun təşviqi məqsədi ilə 2018-ci ilin yanvar–dekabr aylarında **282** tədbir və ikitərəfli görüş (Azərbaycanda 228, xaricdə 54) keçirilib.

Biznes forumlar bu tədbirlər arasında ən iri miqyaslı olması ilə fərqlənir.Cari ilin yanvar–dekabr aylarında Azərbaycanda 10 , xaricdə isə 4 olmaqla ümumilikdə 14 biznes forum keçirilib.




4-8 fevral 2018-ci il tarixlərində Azərbaycan Respublikasının iqtisadiyyat naziri Şahin Mustafayevin rəhbərliyi ilə biznes nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri çərçivəsində Çin-Azərbaycan Biznes Forumu keçirilib.

Biznes forum çərçivəsində iqtisadiyyat naziri Şahin Mustafayevin rəhbərliyi ilə Çində səfərdə olan Azərbaycan nümayəndə heyətinin iştirakı ilə Azərbaycanın Ticarət Nümayəndəliyinin ofisinin rəsmi açılış mərasimi təşkil edilib. Qeyd edək ki, Ticarət Nümayəndəliyinin ofisinin açılmasının ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin inkişafında, ölkəmizin qeyri-neft ixracının genişləndirilməsi, "Made in Azerbaijan" brendinin, əlverişli biznes və investisiya mühitinin təşviqi və Çin investisiyalarının cəlb olunması, habelə Azərbaycan şirkətlərinin Çində iqtisadi maraqlarının qorunması və müxtəlif məsələlərlə bağlı Azərbaycan sahibkarlarına dəstək göstərilməsi baxımından əhəmiyyətlidir.



Hesabat dövründə Azərbaycanda qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın şaxələndirilməsi, ixracın genişləndirilməsi, "Made in Azerbaijan" brendinin və xarici investisiyaların təşviqi, Azərbaycan-İran iqtisadi əməkdaşlığının genişləndirilməsi məqsədi ilə həm ölkəmizdə, həm də İranda biznes forumlar keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə keçirilən Azərbaycan-İran Biznes forumu xüsusi ilə əhəmiyyətlidir.

İqtisadiyyat Nazirliyinin dəstəyi ilə cari ilin may ayının 17-də keçirilən Azərbaycan-Avstriya biznes forumda Azərbaycan və Avstriya tərəfdən rəsmi şəxslərlə yanaşı, energetika, İKT, konsaltinq, tikinti, maşınqayırma, metallurgiya, yanğınsöndürmə avadanlıqları, logistika, mebel istehsalı, tullantıların təkrar emalı, mühafizə sistemləri, nəqliyyat, tikinti, təhsil, sənaye və digər sahələrdə fəaliyyət göstərən 80-ə yaxın sahibkar iştirak edib.

Azərbaycan və Avropa İttifaqı iş adamları arasında əməkdaşlıq imkanlarının genişləndirilməsi məqsədi ilə 2018- ci ilin iyun ayının 5-də təşkil olunmuş Azərbaycan-Avropa İttifaqı biznes foruma əvvəlki illərdə olduğu kimi bu il də böyük maraq göstərilib. Belə ki, tədbirə rəsmi şəxslər, beynəlxalq təşkilatların, səfirliklərin, ticarət palatalarının nümayəndələri, eləcə də Azərbaycandan 300-dən çox, Avropa İttifaqına daxil olan ölkələrdən isə 100-dən artıq iş adamı olmaqla ümumilikdə 800-ə yaxın iştirakçı qatılıb.

İyulun 4-də İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Azərbaycan-Pakistan biznes forumu keçirilib. Tədbirdə rəsmi şəxslərlə yanaşı, hər iki tərəfdən sənaye, kənd təsərrüfatı, əczaçılıq, tikinti, sığorta, turizm, logistika və digər sahələrdə fəaliyyət göstərən 250-ə yaxın iş adamı iştirak edib.Tədbirdə Azərbaycan və Pakistan iqtisadiyyatına, bu ölkələrin biznes və investisiya imkanlarına dair təqdimatlar keçilib. Forum çərçivəsində AZPROMO və Pakistanın Ravalpindi Ticarət və Sənaye Palatasının (RCCİ) arasında iqtisadi-ticarət və investisiya əlaqələrinin inkişaf etdirilməsinə, ixracın və xarici sərmayələrin təşviqi sahəsində təcrübə mübadiləsinə dair Anlaşma Memorandumu imzalanıb.

Hesabat dövründə rəsmi şəxslərin və iş adamlarının iştirakı ilə İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Azərbaycan-İsveçrə biznes forumu keçirilib. İyul ayının 9-da təşkil edilən tədbirdə rəsmi şəxslərlə yanaşı, hər iki tərəfdən maliyyə və sığorta, bankçılıq, əczaçılıq, tikinti, kənd təsərrüfatı, turizm, logistika və digər sahələrdə fəaliyyət göstərən şirkətlərin nümayəndələri iştirak edib. Forum çərçivəsində Azərbaycanın və İsveçrənin biznes və investisiya mühiti barədə təqdimatlar keçirilib, iş adamları arasında ikitərəfli görüşlər təşkil edilib.

İyulun 19-də Azərbaycan-İtaliya biznes forumu keçirilib. Hər iki ölkə başçısının iştirakı ilə təşkil edilən biznes forumda Azərbaycan və İtaliya tərəfdən rəsmi şəxslərlə yanaşı, maliyyə, tikinti, kənd təsərrüfatı, logistika və digər sahələrdə fəaliyyət göstərən sahibkarlar iştirak edib. Azərbaycan-İtaliya iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi məqsədi ilə təşkil edilən biznes forumda ikitərəfli əməkdaşlıq istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verilib.

İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə sentyabr ayının 12-də Azərbaycan-Çexiya biznes forumu keçirilib. Tədbirdə hər iki tərəfdən rəsmi şəxslərlə yanaşı, turizm, səhiyyə, logistika, bank, xidmət, sığorta, maşınqayırma, energetika və s. sahələrdə fəaliyyət göstərən 130-a yaxın iş adamı iştirak edib. Tədbir çərçivəsində Azərbaycan və Çexiyanın biznes və investisiya imkanlarına, hər iki ölkənin şirkətlərinin fəaliyyətinə və əməkdaşlıq istiqamətlərinə dair təqdimatlar keçirilib.Biznes forumda iş adamları arasında ikitərəfli görüşlər keçirilib, işgüzar əlaqələrin genişləndirilməsi imkanları müzakirə olunub.

Sentyabrın 27-də Heydər Əliyev Mərkəzində hər iki ölkənin dövlət başçılarının iştirakı ilə IX Azərbaycan-Rusiya Regionlararası Forum keçirilib. Forum çərçivəsində Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan İşgüzar Şuralarının geniştərkibli iclası təşkil edilib. Tədbirdə hər iki ölkədən rəsmi şəxslərlə yanaşı, sənaye, tikinti, bank, qida, maşınqayırma, metallurgiya, nəqliyyat, əczaçılıq və s. sahələrdə fəaliyyət göstərən şirkətlərin nümayəndələri iştirak edib. Tədbirdə Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan İşgüzar Şuraları arasında əməkdaşlığa dair Saziş imzalanıb. Azərbaycanın və Rusiyanın şirkətləri və biznes təşkilatları arasında sənədlərin imzalanması mərasimi olub.



22-23 oktyabr tarixlərində Rusiyanın Həştərxan vilayətində “Həştərxan-Azərbaycan: Qadın Sahibkarlığı” Forumu keçirilib. Forumda Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) və Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının (AQSİA) təşkilatçılığı ilə ölkəmizin sahibkar qadınlardan ibarət nümayəndə heyəti iştirak edib. Azərbaycan və Həştərxan vilayətindən 350-yə yaxın qadın sahibkarın iştirak etdiyi Forum çərçivəsində işgüzar görüşlər, ustad dərsləri, biznes layihələrin təqdimatı və digər tədbirlər keçirilib.

Noyabrın 13-də Bakı Biznes Mərkəzində İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Azərbaycan-Slovakiya biznes forumu keçirilib. Tədbirdə Azərbaycan və Slovakiya rəsmiləri ilə yanaşı, sənaye, energetika, İKT, maşınqayırma, kimya, qida, səhiyyə və s. sahələrdə fəaliyyət göstərən 200-ə yaxın şirkətin nümayəndəsi iştirak edib. Biznes forumda Slovakiya şirkətləri barədə məlumat verilib, iş adamları arasında ikitərəfli görüşlər keçirilib.

11 dekabr tarixində Bakı Biznes Mərkəzində Azərbaycan-Türkiyə Kənd Təsərrüfatı biznes Forumu keçirilib. Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı və İqtisadiyyat Nazirliyinin dəstəyi ilə keçirilən biznes forumda Azərbaycanın dövlət qurumlarının rəhbərləri, iş adamları, Türkiyədən gəlmiş 65 nəfərlik nümayəndə heyətinin üzvləri iştirak ediblər.

Hesabat dövründə Almaniyanın Berlin şəhərində 1-ci Almaniya-Azərbaycan Biznes Dialoqu keçirilib. 100-dən çox Azərbaycan və Almaniya şirkətinin iştirakı ilə keçirilən tədbirdə hər iki ölkənin işgüzar dairələri arasında əməkdaşlığın genişləndirilməsi, potensial tərəfdaşlarla ikitərəfli əlaqələrin qurulması və biznes imkanları müzakirə edilib.

## ▪ İşgüzar görüşlər

Hesabat dövründə AZPROMO-nun təşkilatçılığı ilə 60 işgüzar görüş keçirilib. İşgüzar dairələrin iştirakı ilə keçirilən görüşlər yeni əməkdaşlıq imkanlarının yaranmasında, ölkəmizin xarici iqtisadi əlaqələrinin və ticarət imkanlarının genişlənməsində mühüm rol oynayır.

## ▪ Təlim Seminarları

2018-ci ildə AZPROMO tərəfindən 10 təlim seminar keçirilib. Seminarlar beynəlxalq bazarlara çıxış, ixrac olunan ərzaq mallarının sertifikatlaşdırılması, "Made in Azerbaijan" brendinin təşviqi, ixracın coğrafiyası və həcminin genişləndirilməsi və s. mövzularda təşkil olunub.



2018-ci ilin fevralın 1-də İqtisadiyyat Nazirliyinin dəstəyi, AZPROMO-nun təşkilatçılığı ilə "Beynəlxalq bazarlara çıxış, ixrac olunan ərzaq mallarının sertifikatlaşdırılması və təsdiqi" mövzusunda seminar keçirilib.

**İxracatçılar Klubu** çərçivəsində keçirilmiş seminarda kənd təsərrüfatı və qida sahəsində fəaliyyət göstərən 40-a yaxın iş adamı iştirak edib.

Azərbaycanda ixracatçılara dəstək və onların maarifləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyi arasında videokonfrans keçirilib. İqtisadiyyat Nazirliyinin, AZPROMO və Azərbaycan-Rusiya İşgüzar Şurasının birgə təşkilatçılığı ilə keçirilən videokonfransda kənd təsərrüfatı, qida, konservləşdirilmiş məhsullar, şərabçılıq və s. sahələrdə fəaliyyət göstərən şirkətlərin nümayəndələri iştirak edib. Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyinin əməkdaşları tərəfindən videokonfrans vasitəsilə azərbaycanlı iş adamlarının suallarını cavablandırılıb, ixracatçı şirkətlərə hüquqi və texniki məsələlərlə bağlı ətraflı məlumat verilib. Videokonfrans zamanı qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib.

Azərbaycanda kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən fermer və şirkətlərə öz məhsullarını Avropa İttifaqına çıxarmağa dəstək göstərmək məqsədilə cari ilin 16 mart tarixində "Global G.A.P." maarifləndirici təlimi keçirilib. Tədbirdə "Global G.A.P."-in tarixi, Global sertifikatını əldə etməyin üstünlükləri, Global G.A.P. sertifikatı verilən sahələr və digər mövzular barədə iştirakçılara ətraflı məlumat verilib, onların sualları cavablandırılıb.

17 aprel 2018-ci il tarixində İqtisadiyyat Nazirliyinin dəstəyi, AZPROMO-nun təşkilatçılığı ilə İxracatçılar Klubunun növbəti iclası və "Made in Azerbaijan" brendinin təşviqi mexanizmləri ilə bağlı seminar keçirilib. Tədbirdə 100-ə yaxın sahibkar iştirak etmişdir. Seminarda İxracatçılar Klubunun Azərbaycan məhsullarının xarici bazarlara ixrac edib istehsalçılara dəstək göstərmək və ixracatçılar arasında daimi ünsiyyət platformasını formalaşdırmaq məqsədilə yaradıldığı qeyd edilib, sahibkarlara göstərilən dəstək mexanizmləri barədə məlumat verilib.

Cari ilin 3 iyul tarixində Bakı Biznes Mərkəzində İqtisadiyyat Nazirliyinin dəstəyi və AZPROMO-nun təşkilatçılığı ixrac təşviqi ilə bağlı maarifləndirmə tədbiri keçirilib. Tədbirdə 40-a yaxın sahibkar iştirak edib. Görüşdə dövlət dəstəyi tədbirləri barədə məlumat verilib, ixrac təşviqinin ödənilməsi mexanizminin tətbiq edildiyi məhsulların sayının artırılmasının sahibkarlar üçün əlavə imkanlar yaratdığını vurğulanıb, ixracatçıları yaradılmış əlverişli şəraitdən yararlanmağa dəvət olunub.

11 iyul 2018-ci il tarixində Bakı Fond Birjasının (BFB) və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) ilə birlikdə Bakı Biznes Mərkəzində "IPO, Korporativ idarəetmə və listinq" mövzusunda biznes seminar keçirilib.Tədbirdə İlkin Kütləvi Təklif (İPO) və onun üstünlükləri, kütləvi təklif prosesinin idarə edilməsi, investorlar və tərəf müqabilləri ilə kommunikasiyanın təşkili, İPO üçün şirkətin müsbət nüfuzunun formalaşdırılması, BFB-nin Listinq Məsləhət Proqramı, yerli kapital bazarları vasitəsi ilə effektiv maliyyələşmə imkanları və s. mövzusunda təqdimatlar edilib.

19 iyul 2018-ci il tarixində Bakı Biznes Mərkəzində ixracatçılar üçün "JETRO Zone in FOODEX JAPAN 2019" haqqında məlumatlandırma seminarı keçirilib. Tədbirdə kənd təsərrüfatı və qida sənayesi sahələrində fəaliyyət göstərən yerli şirkət nümayəndələri iştirak edib.



Sentyabrın 11-də Bakı Biznes Mərkəzində Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Avropa İttifaqının Azərbaycan nümayəndəliyinin birgə təşkilatçılığı ilə istehsalçı və ixracatçılar assosiasiyaları üçün "Kiçik və orta sahibkarların ixrac imkanlarının yüksəldilməsi məqsədi ilə assosiasiyaların fəaliyyətinin gücləndilməsi" mövzusunda seminar keçirilib.Seminarda kənd təsərrüfatı və qida sənayesində fəaliyyət göstərən 20-dən çox şirkətin nümayəndəsi iştirak edib. Tədbirdə Azərbaycan məhsullarının xarici bazarlara ixracı, bu istiqamətdə bazar araşdırmalarının aparılması, yeni bazarların müəyyən edilməsi və onlarla biznes əlaqələrinin yaradılması mövzularında təqdimatlar keçirilib.

Sentyabrın 24-də Bakı Biznes Mərkəzində Azərbaycanda İxracın və İnvestesiyiların Təşviqi Fondunun (AZPROMO) və Beynəlxalq Ticarət Mərkəzinin (ITC) təşkilatçılığı ilə "Sərgidə iştirak: düzgün hazırlaşma, iştirak və sonradan izləmə nəticəsində daha yaxşı nəaliyyətlərin əldə edilməsi" mövzusunda təlim təşkil edilib.Tədbirdə kənd təsərrüfatı və qida sənayesində fəaliyyət göstərən 15 şirkətin nümayəndəsi iştirak edib. Təlimdə sərgiyə düzgün hazırlaşma, sərgidən sonra qarşı tərəflə düzgün əlaqələrin qurulması və həmin əlaqələrin davam etdirilməsi mövzusunda təqdimatlar keçirilib.

Hesabat dövründə İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə İxracatçılar Klubunun növbəti iclası çərçivəsində "Qida məhsulları üzrə sertifikasiya – Global Gap" mövzusunda seminar keçirilib. Seminarda kənd təsərrüfatı və qida sahəsində fəaliyyət göstərən yerli şirkətlər və fermerlər meyvə-tərəvəz məhsullarının ixracı zamanı "Global G.A.P" standartının tətbiqinin üstünlükləri barədə məlumatlandırılıb.

## Təqdimatlar

Hesabat dövründə keçirilən Çin-Azərbaycan biznes forumu çərçivəsində "Kəmər və Yol təşəbbüsünün təşviqində Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin rolu" mövzusunda Təqdimat edilib.

2018-ci ilin may ayının 2-də Pakistan iş adamları üçün AZPROMO tərəfindən keçirilən ölkəmizin biznes və investisiya imkanlarına dair təqdimat da Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində və xarici investorların cəlbində xüsusi rol oynayıb.

İqtisadiyyat Nazirliyinin dəstəyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə İxracatçılar Klubunun iclası çərçivəsində "Dövlət Aqrar Ticarət Şirkəti" MMC-nin təqdimatı keçirilib. İqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən 50-ə yaxın şirkətin nümayəndəsinin iştirak etdiyi tədbirdə Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan "Dövlət Aqrar Ticarət Şirkəti" MMC-nin fəaliyyət istiqamətləri barədə təqdimat keçirilib, İxracatçılar Klubu və "Dövlət Aqrar Ticarət Şirkəti" MMC arasında əməkdaşlıq istiqamətləri müzakirə olunub.

# Konfrans və Dəyirmi Masalar

Hesabat dövründə AZPROMO tərəfindən 5 konfrans və 1 dəyirmi masa təşkil edilib.

May ayının 25-də İqtisadiyyat Nazirliyinin və Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının dəstəyi, AZPROMO-nun təşkilatçılığı ilə Sahibkarlar gününə həsr olunmuş konfrans keçirilib.Konfransda aidiyyəti dövlət qurumlarının, sahibkarların ictimai birliklərinin nümayəndələri, eləcə də müxtəlif sahələrdə fəaliyyət göstərən sahibkarlar iştirak edib.

2018-ci ilin oktyabr ayının 25-də Bakıda işə başlayan VI Beynəlxalq Humanitar Forum çərçivəsində "İnnovasiyalar yaradıcı iqtisadiyyatın yeni mənbəyi kimi" adlı plenar sessiyanın iclası təşkil olunub.

19 noyabr 2018-ci il tarixində Bakı Biznes Mərkəzində Bakı Fond Birjası (BFB) və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə "Şirkətlərin İnkişaf Yolunda İPO və İstiqraz Buraxılışı" mövzusunda biznes konfrans keçirilib. Konfransda maliyyə, kənd təsərrüfatı , sənaye, istehsalat, sığorta, tikinti və s. sahələr üzrə fəaliyyət göstərən şirkətlərin nümayəndələri iştirak edib.

Noyabrın 26-da Bakı Biznes Mərkəzində İqtisadiyyat Nazirliyinin dəstəyi, "Azərbaycan İnvestisiya Şirkəti" ASC və Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) təşkilatçılığı ilə "Uyğun qiymətə mənzil bazarında əməkdaşlıq imkanları" mövzusunda tədbir keçirilib. Tədbirdə 40-dan çox yerli və xarici şirkətin nümayəndəsi iştirak edib.

Hesabat dövründə Bakıda Azərbaycan Cümhuriyyətinin 100-cü ildönümünə həsr edilmiş "Əsrə Bərabər Gün" adlı "Marketinq Sammiti 2018" keçirilib. Tədbir lokal marketinq ilə qlobal marketinqin inteqrasiyası və dövlətin Strateji Yol Xəritəsində vurğulanan marketinq, menecment, insan kapitalının inkişafı siyasətinə özəl sektorun dəstəyinin nələrdən ibarət olmasının qarşılıqlı müzakirə edilməsi məqsədi ilə keçirilib.

AZPROMO təşkilatçılığı ilə 2018-ci ilin 31 may tarixində "Azərbaycan-Almaniya Dəyirmi Masası" təşkil olunub. Görüş çərçivəsində iki ölkə arasında sosial-iqtisadi əlaqələrin genişləndirilməsi, investisiya qoyuluşu, qeyri-neft ixracının stimullaşdırılması məsələləri müzakirə edilib.

# Mətbuat Konfransı

2018-ci ilin yanvar-dekabr aylarında "Made in Azerbaijan" brendinin təşviqi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) fəaliyyətinə dair ümumilikdə 5 mətbuat konfransı keçirilib.





# İkitərəfli görüşlər

"Made in Azerbaijan" brendinin və xarici investisiyaların təşviqi, biznes mühitinin daha da yaxşılaşdırılması məqsədi ilə 2018-ci ilin yanvar-dekabr aylarında AZPROMO-nun iştirakı ilə **129** ikitərəfli görüş keçirilib.

# Beynəlxalq sərgi və yarmarkalarda vahid ölkə stendi ilə iştirak

**"Made in Azerbaijan" brendinin təşviqi məqsədi ilə 2018-ci ilin yanvar-dekabr aylarında 11 beynəlxalq sərgidə vahid ölkə stendi qurulub.**

## "Beynəlxalq Yaşıl Həftə - 2018"

**Nəticələr :**

Azərbaycan 10-cu dəfədir ki, bu sərgidə iştirak edib. Sərginin Azərbaycanın pavilyonunda İqtisadiyyat Nazirliyinin təşkilatçılığı, Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasındakı Səfirliyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) dəstəyi ilə ölkəmizdə istehsal edilən 200-dən çox çeşiddə müxtəlif kənd təsərrüfatı və yeyinti məhsulları nümayiş olunub. Sərginin Azərbaycana aid pavilionunda Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən şirkətlərin məhsulları da nümayiş etdirilib.

## "Prodexpo 2018"

**Azərbaycan tərəfindən iştirak :**

Azərbaycan istehsalı olan meyvə şirələri və digər sərinləşdirici içkilər, şərab və digər spirtli içkilər, fındıq, meyvə-tərəvəz, mineral sular, dondurma, çay, qənnadı məmulatları 26 şirkət tərəfindən nümayiş etdirilib.

**Nəticələr :**

Azərbaycanın 4 şirkəti Rusiya Federasiyasının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən "İlin ən yaxşı məhsulu 2018" nominasiyası üzrə qızıl medallara layiq görülüb. Sərgi çərçivəsində keçirilmiş işgüzar görüşlər zamanı Azərbaycan şirkətlərinin istehsal etdiyi limonad, mineral su və qənnadı məmulatlarının Rusiya bazarına ixracına dair müqavilə imzalanıb. Fındığın



**Berlin**
**Almaniya Federativ Respublikası**
19 Yanvar 2018
**Beynəlxalq Yaşıl Həftə - 2018**



**Moskva**
**Rusiya Federasiyası**
5-9 Fevral 2018
**Prodexpo 2018**
Stend : 181 m²



**Berlin**
**Almaniya Federativ Respublikası**
7-9 Fevral 2018
**Fruit Logictica 2018**
Stend : 104 m²



**Dubay**
**Birləşmiş Ərəb Əmirliklərinin**
18-22 Fevral 2018
**Gulfood 2018**
Stend : 174 m²



**Şanxay**
**Çin Xalq Respublikası**
16-18 May 2018
**Sial 2018**
Stend : 210 m²



**Urumçi**
**Çin Xalq Respublikası**
30 Avqust - 1 Sentyabr 2018
**6-cı Çin-Avrasiya**
Stend : 200 m²



**Almatı**
**Qazaxıstanın Respublikası**
4-6 Sentyabr 2018
**KazBuild 2018**
Stend : 205 m²



**Moskva**
**Rusiya Federasiyası**
17-20 Sentyabr 2018
**Worldfood Moscow 2018**
Stend : 210 m²




Belarusiya və Rusiyaya, şərab və digər spirtli içkilərin Rusiya və Çinə, dondurma məhsullarının, qabartma tozunun Rusiyaya ixracına dair ilkin razılaşdırmalar əldə olunub.

Qeyd edək ki, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu "Prodexpo 2018" Beynəlxalq Ərzaq Sərgisinə göstərdiyi dəstəyə görə mükafata layiq görülüb.

**Paris**
**Fransa Respublikası**
21-25 Oktyabr 2018
**"Sial Paris"**
Stend : 179 m²

**Şanxay**
**Çin Xalq Respublikası**
5-10 Noyabr 2018
**Çin Beynəlxalq İdxal Sərgisi**
Stend : 300 m²

**Şanxay**
**Çin Xalq Respublikası**
13-15 Noyabr 2018
**"Prowine China" Beynəlxalq Şərab Sərgisi**
Stend : 120 m²

## "Prodexpo 2018" hesabatı

| | |
|---|---|
| Müqavilə | 2.1 mln $ |
| İxrac | 2 mln $ |

| | |
|---|---|
| Qənnadı məlumatları | 32 980 $ |
| Pomidor | 1 667 979 $ |
| Fındıq ləpəsi | 241 850 $ |
| Nar şirəsi | 44 700 $ |



## "Fruit Logistica 2018"




**Azərbaycan tərəfindən iştirak :**

Azərbaycan istehsalı olan meyvə-tərəvəz məhsulları 9 şirkət tərəfindən nümayiş etdirilib.

**Nəticələr :**

Sərgidə Azərbaycan məhsulları üzrə geniş marketinq kampaniyası aparılıb, giləlenmiş nar dənələrinin, albalı və digər məhsulların ixracına dair Avropanın İngiltərə, Almaniya, Portuqaliya kimi ölkələrinin aparıcı şirkətləri ilə danışıqlar nəticəsində ilkin sifarişlər qeydə alınıb.

## "Gulfood 2018" sərgisi

**Azərbaycan tərəfindən iştirak :**

Azərbaycan istehsalı olan meyvə-tərəvəz, ət və ət məhsulları, süd və süd məhsulları, meyvə şirələri, qənnadı məmulatları, fındıq, bal, çay, təbii mineral sular, konservləşdirilmiş qida məhsulları 23 şirkət tərəfindən nümayiş etdirilib.

**Nəticələr :**

Sərgi çərçivəsində BƏƏ-yə, Küveytə, İtaliyaya, Pakistana, Türkmənistana, Almaniya, Səudiyyə Ərəbistanına, Avstraliyaya müxtəlif növ qida məhsullarının ixracına dair, habelə məhsulların xarici iri market şəbəkələrinə, otellərə satışına dair danışıqlar aparılıb.

Ümumilikdə, "Gulfood 2018" sərgisi çərçivəsində **1 051 610 USD** dəyərində müqavilə imzalanıb və **330 641 USD** dəyərində məhsul ixrac olunub.









# "Sial China" sərgisi




**Azərbaycan tərəfindən iştirak :**

Azərbaycan istehsalı olan meyvə şirələri, çay, şərab və digər spirtli içkilər, qənnadı məmulatları və s. 17 şirkət tərəfindən nümayiş etdirilib.

**17** şirkət

ərazi **210 m²**

**Nəticələr :**

Paviliyonumuzda rəqabət qabliyyətli və ixracyönümlü Azərbaycan məhsulları üzrə geniş marketinq kampaniyası aparılmış, fındığın İtaliyaya ixracına dair ilkin razılaşdırmalar əldə olunub. Həmçinin, gilas meyvəsinin Honq Konqa ixracına dair danışıqlar aparılıb, ilkin sifarişlər qeydə alınıb.

# "6-cı Çin-Avrasiya" sərgisi

**Azərbaycan tərəfindən iştirak :**

Azərbaycan istehsalı olan meyvə şirələri və digər sərinləşdirici içkilər, şərab və digər spirtli içkilər, fındıq, mineral sular, qənnadı məmulatlar, çay, mürəbbə, qurudulmuş meyvə istehsalı sahəsində fəaliyyət göstərən 21 şirkətin təmsilçisi iştirak edib.




**Nəticələr :**

Sərgi çərçivəsində Azərbaycan şərabının və digər spirtli içkilərin Çinə ixracına dair "Göygöl Şərab Zavodu" ASC və çin şirkətləri arasında müzakirələr aparılıb, "Ayan" şirkəti isə **4.5 ton Azərbaycan limonadının** ixracına dair razılığa edib. Azərbaycanda istehsal olunan bir çox məhsullar kimi zeytun yağı da sərgidə iştirak edən xarici şirkətlərin diqqətini cəlb edib və **10 ton zeytun yağının** Çinə ixracına dair "Azərsun Holding" şirkəti ilə razılıq əldə olunub. Bundan başqa, Çinin "İxlas" distribüter şirkəti ilə Azərbaycanın qənnadı məmulatları istehsalçısı olan "Konfiron" MMC arasında danışıqlar aparılıb və ilkin razılaşma əldə olunub.Çinin "Hans Zhou", "TİAN SHENG HOLDİNGS", "BEİJİNG REVİEW" kimi şirkətləri isə Azərbaycan fındığına böyük maraq göstərib və bu şirkətlərlə "Azhazelnut" şirkəti arasında ixraca dair danışıqlar aparılıb.

# "KazBuild 2018" sərgisi

**Azərbaycan tərəfindən iştirak :**

Sərgidə İnşaat və tikinti materialları istehsalı ilə məşğul olan 14 Azərbaycan şirkəti iştirak edib.

**Nəticələr :**

Tədbir çərçivəsində Xarici şirkətlərin və sərgi ziyarətçilərinin böyük marağına səbəb olan Azərbaycan məhsulları "Ən yaxşı debüt" mükafatına layiq görülüb. Azərbaycan məhsullarının yüksək zövq və peşəkarlıqla hazırlanmış stenddə təqdimatına görə AZPROMO sertifikatla mükafatlandırılıb.

Sərgidə Azərbaycanın inşaat və tikinti şirkətlərinin nümayəndələri xarici şirkətlərin təmsilçiləri ilə görüşlər keçirib, potensial müştərilərlə məhsulların ixracına dair müzakirələr aparıb, əhəmiyyətli nəticələr əldə edilib. Belə ki, tikinti materiallarının istehsalı ilə məşğul olan Azərbaycanın "CMT group" şirkəti ilə **300 000 ABŞ dolları dəyərində gəmi boyası və döşəmə örtüyü üçün epoksid** Qazaxıstana ixracına dair ilkin razılaşma əldə olunub. Bundan əlavə, "FƏXRƏDDİN - K" MMC şirkəti Qazaxıstanın Almatı və digər regionlarında fəaliyyət göstərən tikinti şirkətləri ilə aparılan danışıqlarda şirkətin məhsullarının Qazaxıstanda satışına dair ilkin razılıqlar əldə edib.

Sərgidə Azərbaycanın "NB Group" şirkətinin məhsullarına Qazaxıstanın "OBİ Hipermarket" şəbəkəsi tərəfindən ciddi maraq göstərilib və məhsulların bu marketlərdə satışına dair müzakirələr aparılıb. Bundan başqa, Azərbaycanın "Semsan" şirkəti Qazaxıstanda və Rusiyada fəaliyyət göstərən tikinti şirkətləri ilə, həmçinin Polşadan və Özbəkistandan olan topdansatış şirkətləri ilə ixraca dair müzakirələr aparıb.Bundan əlavə Sumqayıt Texnologiyalar Parkı ilə Qırğızıstan, Tacikistan və Qazaxıstandan olan 4 şirkət arasında ixraca dair ilkin razılıq əldə olunub.

## "KazBuild 2018" sərgisi

**Bağlanmış müqavilələrin ümumi dəyəri : 300 000 USD**

## "Worldfood Moscow 2018" sərgisi

**Azərbaycan tərəfindən iştirak :**

Sərgidə qida, meyvə-tərəvəz, şərab və digər spirtli içkilər, fındıq və qurudulmuş meyvə, çay, konservləşdirilmiş məhsullar, qənnadı məmulatları və digər məhsulların istehsalı və ixracı ilə məşğul olan 33 Azərbaycan şirkəti təmsil olunub



**Nəticələr :**

Azərbaycan ötən il olduğu kimi bu ildə "Worldfood Moscow 2018" sərgisinin rəsmi tərəfdaşı olub.

Digər sərgilərdəki kimi bu sərgidə də Azərbaycan məhsulları xarici şirkətlər və sərgiyə gələnlər tərəfindən maraqla qarşılanıb. Belə ki, Azərbaycanın "Avrora" şirkəti Koreyanın "Woollim Food" şirkəti ilə makaron məhsullarının, Türkiyənin "Oğuz", Polşanın "Krynica vitamin" və Rusiyanın "Patriot" şirkəti ilə energetik içkilərin, həmçinin Belarusun "Svitok" şirkəti ilə isə məhsullarının ixracına dair danışıqlar aparıb.

Rusiyada fəaliyyət göstərən "Grante" şirkəti Azərbaycanın "Can-Pa" şirkətinə Rusiyada distributorluğunun açılmasını təklif edib. Rusiyanın "Gimex", "9 Bar Coffee", "TRACCA" şirkətlər qrupu Azərbaycanın "Can-Pa" şirkətinin məhsullarının Rusiyanın supermarketlərdə satışına dair müzakirələr aparıblar.

Sərgidə digər Azərbaycan məhsulları kimi, şərab və başqa spirtli içkilər də iştirakçılar tərəfindən maraqla qarşılanıb. Rusiyanın "Sima-lend", "Ekonomniy Torkoviy set" və "Avrasiya" ticarət şəbəkələri Göygöl Şərab Zavodunun məhsullarının Rusiyada satışına böyük maraq göstərirlər. Azərbaycanın "Sirab" şirkəti Rusiyanın bir çox regionlarında fəaiyyət göstərən topdansatış məntəqələrində mineral sularının satışına dair danışıqlar aparıb.

**Ümumilkdə 2018-ci ilin yanvar-dekabr aylarında Beynəlxalq sərgilərdə iştirak nəticəsində bağlanmış müqavilələrin toplam dəyəri 6 540 880 USD, toplam ixrac 2 643 931 USD olub.**

## "Sial Paris" beynəlxalq ərzaq sərgisi




**Azərbaycan tərəfindən iştirak:**

Sərgidə qida, meyvə-tərəvəz, şərab və digər spirtli içkilər, meyvə şirələri, mineral sular, konservləşdirilmiş məhsullar, fındıq və qurudulmuş meyvə, çay və digər məhsulların istehsalı ilə məşğul olan 24 Azərbaycan şirkəti öz məhsullarını "Made in Azerbaijan" vahid ölkə stendi ilə təqdim edib.

**Nəticələr:**

Azərbaycanın "A+Co" şirkətinin şərab və digər spirtli içkilərinin Norveçə, "Göygöl şərab zavodu"nun məhsullarının ABŞ, Komboca və Çinə ixracına dair ilkin razılıqlar əldə edilib. Azərbaycanın "Aznar" və "Agro-Azerinvest" şirkətinin məhsullarının Braziliya, Ukrayna və Almaniyaya, "Tovuz Baltiya" şirkəti isə Yaponiya, İtaliya, Çin, Ruminiya, Komboca şirkətləri ilə məhsullarının ixracına dair danışıqlar aparıb. Bununla yanaşı, Azərbaycanın "Mars-FK" şirkəti Fransaya 36 ton, Cibutiyə 18 ton, Polşaya həftədə 18 ton, "Kaslar" şirkəti isə Polşaya 40 ton fındıq ləpəsinin ixracına dair razılıq əldə edib. Artıq məhsulların müvafiq ölkələrə ixrac edilib.

# Çin Beynəlxalq İdxal Sərgisi

**Azərbaycan tərəfindən iştirak:**

Sərgidə 180 çeşiddən çox üzüm və meyvə şərabları, brandi, viski, vodka, meyvə distillatları, çay, meyvə şirələri, müəbbələr və digər konserv məhsulları, qənnadı məhsulları, fındıq, quru və yarı quru meyvə istehsalı ilə məşğul olan 32 Azərbaycan şirkəti təmsil olunub.



**Nəticələr:**

"Gəncə Şərab-2" ASC şirkəti Çinin müxtəlif şəhərlərində fəaliyyət göstərən 10 şirkətlə danışıqlar aparıb, onlardan 4-ü tərəfindən ixraca dair ilkin razılıq əldə edib. "Az-Granata" MMC şirkəti nar şirəsi məhsulunun ixracına dair **30 milyon** ABŞ dolları dəyərində memorandum imzalanıb, həmçinin Çinin "Tiancing" şirkəti və İtalyadan olan şirkət "Az-Granata"nın bütün məhsullarına böyük maraq göstərilib, məhsulların ixracına dair danışıqlar aparılıb.

"Azəri" MMC şirkəti Şanxaydan olan şirkətlə spirtli içki məhsullarının ixracına dair **20 mln USD** dəyərində memorandum imzalanıb.

"Göygöl şərab zavodu" ASC bir il ərzində 95 min USD məbləğində hər ay 1 konteyner şərab məhsulunun Çinə ixracına dair ilkin razılıq əldə edilib.

"Gilan" FMCG meyvə kompotu, cipsi və nar şirələrinin Çinə ixracına dair ilkin razılıq əldə edilib.

"Azərsun Holdinq" Urumçi və Şanxay şəhərlərinə çay, nar şirəsi və bitki yağlarının ixracına dair ilkin razılıq əldə edib.

# “Prowine China” Beynəlxalq Şərab Sərgisi

## Bağlanmış müqavilələrin ümumi dəyəri : 3 000 000 USD

**Azərbaycan tərəfindən iştirak:**

100 çeşiddən çox üzüm və meyvə şərabları, brendi, viski, vodka, meyvə distillatları istehsalı ilə məşğul olan 16 Azərbaycan şirkəti təmsil olunub.

**Nəticələr:**

“Azəri” şirkəti Çin Xalq Respublikasının Şanxay şəhərində fəaliyyət göstərən şirkətlə 3 mln. ABŞ dolları dəyərində spirtli içkilərin ixracına dair müqavilə bağlayıb. Azərbaycanın “A+Co”, “Cəlilabad Şərab-2”, “Tovuz Baltiya”, “Merit-Brand”, “Şərq Ulduzu”, “Aspi-Aqro”, “Gəncə Şərab-2”, "Fireland” şirkətləri istehsal etdikləri məhsulların ixracına dair danışıqlar aparıb, ilkin razılıq əldə ediblər.

“Şirvan” şirkətinin istehsal etdiyi məhsullar Yaponiya və Çindən olan şirkətlərin marağına səbəb olub və artıq məhsulların bu ölkələrə ixracına dair ilkin razılığa gəlinib.



# Beynəlxalq sərgi və yarmarkalarda fərdi qaydada iştirak

## "Birinci Beynəlxalq Məhsullar" sərgisi

8-10 oktyabr 2018

### Qətər Əmirliyi Doha şəhəri



**Azərbaycan tərəfindən iştirak :**

Qida, tekstil, sənaye, dizayn və digər sahələrdə fəaliyyət göstərən 18 Azərbaycan şirkəti öz məhsullarını nümayiş etdirib.

**Nəticələr:**

Azərbaycan məhsullarının nümayiş olunduğu stendlər xarici şirkətlər və ziyarətçilərin böyük marağına səbəb olmuş, ixraca dair razılaşmalar əldə olunub. Belə ki, sərgi çərçivəsində "Azersun Holding" şirkəti ilə "Al Meera", "Carrefour" və "Lulu" ticarət şəbəkələri arasında məhsullarının satışına dair razılıq əldə edilib. Azərbaycanın "Rəmzi-S" MMC şirkəti "Woodworks", "New Tech Contracting", "Golden Opportunity Trad and Contracting", "ABM", "K.M. contracting" şirkətləri ilə Sobsan boyalarının satışına dair razılığa gəlinib. "Şirin" MMC şirkəti məhsullarının Qətərin böyük marketlər şəbəkəsində satışına dair danışıqlar aparmışdır. Azərbaycanın "Amoris" MMC şirkəti Qətərin "Salamis", "Red Colt Co", "Al wabra Farm" şirkətləri ilə məhsulların ixracına dair danışıqlar aparmış və ilkin razılıq əldə olunub. Bundan başqa, "Gilan Holding" və "Buta Agro" şirkətləri də Qətərə məhsul ixracına dair müvafiq razılığa gəlib. Azərbaycanın "M studio" dizayn şirkəti Qətər şirkətlərinin inzibati binalarında və şəxsi mənzillərdə dizayn xidmətlərinin həyata keçirilməsinə dair sifarişlər alıb.






# Ticarət və şərab evləri

| | |
|---|---|
| Açılış tarixi: | **22 iyun 2018** |
| Ümumi sahə: | **300 m²** |



## Ukraynada "Azərbaycan Ticarət Evi"

Azərbaycan Ticarət Evi "Made in Azerbaijan" brendinin Ukrayna bazarında daha çox tanıdılması, Azərbaycan məhsullarının ixracının təşviqi və genişləndirilməsi sahəsində fəaliyyət göstərir, Ukraynada satışını təşkil edir, bu sahədə əlaqələndirməni həyata keçirir. Ticarət Evində təşkil olunmuş Azərbaycan məhsullarının daimi fəaliyyət göstərən sərgidə hazırda 27 Azərbaycan şirkətinin istehsal etdiyi müxtəlif növ mal və məhsullar, o cümlədən, kabel, zeytun, çay, meyvə-tərəvəz və onlardan emal edilmiş məhsullar, qənnadı məmulatları, spirtli içkilər (şərab, konyak və s.), mineral sular, avtomobil yağları, Naftalan neftinin məhsulları nümayiş olunur. Sərgidə 85-ə yaxın növ və çeşiddə şərab məhsulları, 26 növ və çeşiddə konyak, 8 növdə araq, 37 növ və çeşiddə çay, 30 növdən və çeşiddən artıq meyvə şirələri və kompotlar,150-dən artıq növdə digər məhsullar, o cümlədən bitki yağları, maşın yağları, tekstil məhsulları, kabellər və s. təqdim olunur. Eyni zamanda Ticarət Evinin açılışında "Aspi-aqro" MMC və Ukraynanın "Spirit Drink" MMC şirkətləri tərəfindən 130 000 şüşənin ixracına dair müqavilə imzalanıb və artıq məhsullar ixrac olunur.



# Latviyada "Azərbaycan Ticarət Evi"

| | |
|---|---|
| Açılış tarixi: | **23 iyul 2018** |
| Ümumi sahə: | **73 m²** |




Latviyada açılan Ticarət Evi Azərbaycan məhsullarının xarici bazarlarda təşviqi, ixracın və istehsalın stimullaşdırılması məqsədi ilə fəaliyyət göstərir. Ticarət Evində Azərbaycan məhsullarının daimi fəaliyyət göstərən sərgisi təşkil olunmuş və hazırda 18 Azərbaycan şirkətinin istehsal etdiyi müxtəlif növ mal və məhsullar, o cümlədən, kabel, zeytun, çay, düyü, fındıq, meyvə-tərəvəz və onlardan emal edilmiş məhsullar, spirtli içkilər (şərab, konyak və s.), tekstil və kosmetik məhsullar nümayiş olunur. Sərgidə 70-ə yaxın növ və çeşiddə şərab məhsulları, 26 növ və çeşiddə konyak, 10 növdə araq, 26 növ və çeşiddə çay, 23 növdən və çeşiddən artıq meyvə şirələri və kompotlar,70-dən artıq növdə digər məhsullar, o cümlədən bitki yağları, zeytun, tekstil və kosmetik məhsullar, kabellər və s. nümayiş olunur. Bundan əlavə Ticarət Evində turizm sahəsində fəaliyyət göstərən şirkət də təqdim olunur. Ticarət Evinin açılış mərasimi çərçivəsində "Kaslar" MMC ilə SİA "Alis Co" arısanda fınıdq ixarcına dair habelə, "Binə Aqro" MMC ilə SİA "Lietas MD" şirkətləri arasında pomidorun Latviya Respublikasına ixracına dair Anlaşma memorandumları imzalanmışdır. Ticarət Evi vasitəsilə Azərbaycandan Latviyaya 100 tona yaxın pomidor ixrac edilmişdir. İxrac olunan məhsul Riqa şəhərinin mərkəzi bazarında, "Rimmi", "Maksima" və "Top" ticarət şəbəkələrində həmçinin onlayn satış (www.nuko.lv saytında) vasitəsilə satılır. Bununla yanaşı şəbəkə restoranlara da paylanılıb.

# Çində "Azərbaycan Ticarət Evi"

| | |
|---|---|
| Açılış tarixi: | **28 sentyabr 2018** |
| Ümumi sahə: | **600 m²** |

Azərbaycan Respublikası Prezidentinin müvafiq tapşırığına əsasən, Azərbaycanda istehsal edilən məhsulların ixracının təşviqi və genişləndirilməsi, "Made in Azerbaijan" brendinin xarici ölkələrdə tanıdılması, satışının təşkili və əlaqələndirilməsi məqsədilə xarici ölkələrdə ticarət evlərinin açılması prosesinin davamı olaraq Çinin Lucou şəhərində "Azərbaycan Şərab Evi" fəaliyyətə başlayıb. "Azərbaycan Ticarət Evi"ndə ölkəmizdə istehsal olunan ixracyönümlü və rəqabətqabiliyyətli ərzaq və qeyri-ərzaq məhsulları, o cümlədən çay, mineral sular, spirtli içkilər, meyvə-tərəvəz və onlardan emal olunmuş məhsullar (meyvə şirələri, kompotlar, konservlər, mürəbbələr, turşular, bitki yağları), və s. nümayiş olunur. Azərbaycan memarlıq nümunələrinin elementləri əsasında dizayn edilmiş ticarət evində məhsullarımızın sərgisi, topdan və pərakəndə satışı, habelə dequstasiyası həyata keçirilir.



# Polşada "Azərbaycan Ticarət Evi"

| | |
|---|---|
| Açılış tarixi: | **6 dekabr 2018** |
| Ümumi sahə: | **140 m²** |




Ticarət Evində daimi fəaliyyət göstərən sərgidə 27 Azərbaycan şirkətinin istehsal etdiyi müxtəlif növ mal və məhsullar, o cümlədən, çay, fındıq, meyvə-tərəvəz və onlardan emal edilmiş məhsullar, spirtli içkilər (şərab, konyak və s.), mineral sular, tekstil və kosmetik məhsullar nümayiş olunur. Sərgidə 85-ə yaxın növ və çeşiddə şərab məhsulları, 16 növ və çeşiddə konyak, 8 növdə araq, 37 növ və çeşiddə çay, 30 növdən və çeşiddən artıq meyvə şirələri və kompotlar,150-dən artıq növdə digər məhsullar, o cümlədən bitki yağları, tekstil və kosmetik məhsullar və s. təqdim olunur.

Ticarət Evinin açılışında "Azərbaycan Ticarət Evi" və Polşanın "STX ONE" şirkəti arasında fındıq və nar şirəsi satışına dair anlaşma memorandumu imzalanıb.






# Dubayda "Azərbaycan Ticarət Evi"

| | |
|---|---|
| Açılış tarixi: | **15 Yanvar 2019** |
| Ümumi sahə: | **108 m²** |

"Made in Azerbaijan" brendinin təşviqi məqsədilə açılan "Azərbaycan Ticarət Evi" yerli məhsulların körfəz bazarında tanıdılması, ixracın təşviqi və genişləndirilməsi sahəsində fəaliyyət göstərəcək. Azərbaycan məhsullarının daimi fəaliyyət göstərən sərgisində hazırda 33 Azərbaycan şirkətinin istehsal etdiyi kosmetika, parfümeriya, tekstil, mineral sular, limonadlar, meyvə və tərəvəzlər, qurudulmuş meyvələr, fındıq, bal, çay, meyvə şirələri, mürəbbələr və digər konserv məhsulları, bitki yağları, qənnadı məmulatları, süd və süd məhsullar və digər məhsullar nümayiş olunur.






# Azərbaycanın ilk Ticarət evi Belarusda açılmışdır



Açılış tarixi: **26 may 2017**

Ümumi sahə: **364 m²**




- Ticarət Evinin yerləşdiyi binada Azərbaycan şirkətlərinin istehsal etdiyi müxtəlif növ məhsulların daimi sərgisi fəaliyyət göstərir. Sərgidə şərab və konyak, meyvə şirələri, kompotlar, mineral sular, tərəvəz, mürəbbələr, turşular, konservlər, bitki yağları, çay, xalça, tekstil, ipək və kosmetika malları, elektrik avadanlıqları, plastik məmulatlar və s. nümayiş olunur. Yaranmasından qısa müddət keçməsinə baxmayaraq, artıq Azərbaycan Ticarət Evi vasitəsilə ölkəmizdən Belarusa 84 tondan artıq meyvə-tərəvəz məhsulları (pomidor, gavalı, armud, şaftalı, nektarin, yaşıl zeytun və zeytun məhsulları, o cümlədən 8000 şüşəyə yaxın zeytun yağı və mürəbbəsi, 2700 şüşəyə yaxın nar şirəsi, 1200 qutudan artıq çay) ixrac edilib. Təqdim edilmiş məlumata əsasən Azərbaycan Ticarət Evi vasitəsi ilə Belarus Respublikasına 157301,67 ABŞ dolları dəyərində məhsul ixrac edilib.



Bundan əlavə, 132 000 ABŞ dolları dəyərində nar şərabı, 203 122 ABŞ dolları dəyərində spirtli içki Belarus Respublikasına ixrac edilib.



# Çin Xalq Respublikasında İlk
# "Azərbaycan Şərab Evi"
# açılıb



Açılış tarixi: **2 sentyabr 2018**

Ümumi sahə: **80 m²**

"Azərbaycan Şərab Evi" Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, Azərbaycan məhsullarının ixracının dəstəklənməsi, ixracın həcminin və coğrafiyasının genişləndirilməsi, "Made in Azerbaijan" brendinin təşviqi, həmçinin Azərbaycanın şərab və digər spirtli içki məhsullarının Çin bazarında daha çox tanıdılması və satışının təşkili sahəsində fəaliyyət göstərəcək, bu sahədə əlaqələndirməni həyata keçirəcək. Şərab Evinin daimi fəaliyyət göstərən sərgisində xüsusi dadı və keyfiyyəti ilə seçilən müxtəlif növdə Azərbaycan şərabları nümayiş olunur.









# Çin Xalq Respublikasının Şanxay şəhərində ikinci "Azərbaycan Şərab Evi" açılıb

Açılış tarixi: **7 noyabr 2018**




Çinin ilk və ən böyük ticarət zonası olan Şanxay Vayqaoçao Beynəlxalq Ticarət Əməliyyat Mərkəzində (İTOC) yerləşən "Azərbaycan Şərab Evi"ndə məhsullarımızın sərgisi, topdan və pərakəndə satışı, habelə dequstasiyası həyata keçirilir."Azərbaycan Şərab Evi"ndə yerli şirkətlərimizin istehsal etdiyi 120 çeşiddən çox üzüm və meyvə şərabları, spirtli içkilər, meyvə distillatları və s. nümayiş olunur.






# Həştərxan iş mərkəzinin açılması

Sərgi-Ticarət Zalında daimi fəaliyyət göstərən sərgi çərçivəsində 35 Azərbaycan şirkətinin istehsal etdiyi müxtəlif növ məhsullar (şərab və konyak, meyvə şirələri, kompotlar, mineral sular, tərəvəz, mürəbbələr, turşular, konservlər, bitki yağları, çay, xalça, tekstil, kosmetika malları, elektrik avadanlıqları və s.) nümayiş olunur.

Açılış tarixi: **31 may 2018**

Ümumi sahə: **500 m²**

## Ticarət nümayəndəlikləri

Şərqi Avropa | BƏƏ | Rusiya | Çin

2018-ci ildə açılan

## Ticarət evləri və şərab evləri

### Ticarət evləri

- Ukrayna
- Latviya
- Polşa
- Çin

### Şərab evləri

- Çin

(Urumçi və Şanxay şəhərləri)






# İxrac missiyaları

**2018-ci ilin yanvar-dekabr aylarında AZPROMO tərəfindən 10 xarici ölkəyə 11 ixrac missiyası təşkil olunub: Rusiya, İsveçrə, Çin, Qazaxıstan, Monqolustan, Türkiyə, Bolqarıstan, Almaniya, BƏƏ, Səudiyyə Ərəbistanı Krallığına ixrac missiyaları təşkil olunmuşdur.**



30 May - 1 İyun 2018

## Həştərxan şəhərinə ixrac missiyası

Rusiya Federasiyası

**Azərbaycan tərəfindən iştirak :**

Tikinti materialları, tekstil, qənnadı məhsulları, meyvə-tərəvəz, təbii mineral sular və limonadlar, meyvə şirələri, şərab, fındıq, çay və. s məhsulların istehsalı və ixracı ilə məşğul olan 30 Azərbaycan şirkəti.

**Nəticələr :**

Azərbaycan şirkətlərinin nümayəndələri potensial müştərilərlə görüşmüş, iqtisadi-ticarət əlaqələrin genişləndirilməsinə dair müzakirələr aparılıb.



26-29 iyun 2019

## İsveçrə Konfederasiyasına ixrac missiyası

İsveçrə Konfederasiyasının Bern və Sürix şəhəri

**Azərbaycan tərəfindən iştirak :**

Fındıq istehsalı və ixracı ilə məşğul olan 10 Azərbaycan şirkəti.

**Nəticələr :**

Azərbaycan iş adamları İsveçrəli həmkarları ilə əməkdaşlıq imkanlarına, fındıq məhsullarının İsveçrəyə ixracına dair müzakirələr aparmışlar. İxrac missiyasında həmçinin fındıq emalında tətbiq olunan yeni texnologiyalarla tanış olmuş və potensial müştərilərlə görüşlər keçimişlər.

Səfər çərçivəsində İsveçrənin "GN-company", "Varistor" və "Delica" və digər nüfuzlu şirkətləri ilə aparılan müzakirələr zamanı fındıq ixracına dair ilkin razılaşmalar əldə olunmuşdur. Bu məqsədlə İsveçrə şirklətlərinin nümayəndələrinin Azərbaycana səfəri və yerli fındıq istehsalçıları ilə görüşlərinin təşkili barədə razılığa gəlinmişdir.



29 avqust – 3 sentyabr 2018

## Çin Xalq Respublikasına ixrac missiyası

Çin Xalq Respublikasının Urumçi şəhəri



**Azərbaycan tərəfindən iştirak :**

Meyvə şirələri və digər sərinləşdirici içkilər, şərab və digər spirtli içkilər, fındıq, mineral sular, qənnadı məmulatlar, çay, mürəbbə, qurudulmuş meyvə istehsalı ilə məşğul olan 21 Azərbaycan şirkəti.

**Nəticələr :**

Azərbaycanlı sahibkarlar Çinli iş adamları ilə yerli  məhsullarının Çinə ixracına dair müzakirələr təşkil edib, potensial müştərilərlə əməkdaşlıq məsələlərinə dair danışıqlar aparıblar.

İxrac missiyası zamanı Azərbaycanlı ixracatçılar ilə xarici istehalçılar arasında məhsulların satışına və ixracına dair fikir mübaildəsi aparılıb və bu istiqamətdə  yeni görüşlərin görüşlərinin təşkili barədə razılıq əldə edilib



30 sentyabr – 5 oktyabr 2018

## Qazaxıstan Respublikasına ixrac missiyası

Qazaxıstan Respublikası Almatı və Şimkent şəhərləri

**Azərbaycan tərəfindən iştirak :**

Tikinti materialları, meyvə şirələri və digər sərinləşdirici içkilər, şərab və digər spirtli içkilər, mineral sular, qənnadı məmulatlar, çay, mürəbbə, qurudulmuş meyvə istehsalı sahəsində fəaliyyət göstərən Azərbaycan 29 şirkəti.

**Nəticələr :**

İxrac missiyasında Azərbaycan məhsullarına xarici şirkətlər tərəfindən böyük maraq yaranıb.Belə ki, Azərbaycanın "Şərq ulduzu"  və "Merit Brand" şirkəti spirtli içkilərin ixracına dair Qazaxıstan şirkəti ilə razılıq əldə edib. "Gilan holding" şirkəti Qazaxıstanın "Furkan" supermarketlər şəbəkəsində doğranmış kartofun və  "Mia" alqokolsuz içkisinin ixracına dair razılıq əldə edib.  "Azərsun" şirkəti yerli distribüter şirkətləri ilə yağ, pendir, mal əti, pambıq yağı, kompot, çay və konserv məhsullarının ixracına dair danışıqlar aparıb.

13-18 oktyabr 2018



## Monqolustan Respublikasına ixrac missiyası

Monqolustan Respublikasının Ulan-bator şəhəri

**Azərbaycan tərəfindən iştirak:**

Şərab və digər spirtli içkilər, süd və süd məhsulları, konservləşdirilmiş məhsullar, müalicəvi bitki çayları, qənnadı məmulatları, mineral sular, İKT və digər sahələrdə fəaliyyət göstərən 16 Azərbaycan şirkəti

**Nəticələr:**

İxrac missiyasına daxil olan Azərbaycan şirkətlərinin məhsulları öz keyfiyyəti ilə Monqolustan şirkətləri tərəfindən böyük maraqla qarşılanıb. Azərbaycan "Abşeron-Şərab", "A+CO", "Merit Brand", "Şərq Ulduzu", "Aqro-Azerinvest", "Aspi Agro", "Azəri" şirkətləri Monqolustanda fəaliyyət göstərən ən böyük şərab məhsulları üzrə distributor "World Wine LLC" şirkəti ilə və "Sansar" mağaza şəbəkələri ilə görüş keçirib, Azərbaycan şərablarının Monqolustana ixracına dair ilkin razılıq əldə ediblər. Bundan əlavə, Azərbaycanın "Aspi Agro" şirkəti ilə Monqolustanın "Worldwine" şirkəti arasında məhsulların ixracına dair ilkin razılaşma əldə olunub.

Bundan başqa, Azərbaycanın "Herba Flora" şirkəti ilə Monqolustanın "Vitafit İnvest" şirkəti arasında herbal ekstraktın satışı ilə bağlı razılığa gəlinib.

Azərbaycanın "Konfirom" şirkəti" ilə Monqolustanın "Shijirjin Group", "Altan Jolo İmpeks", "Makn export" şirkətləri ilə qənnadı məhsullarının, "Gilan FMCG" şirkəti ilə Monqolustanın "Vertus Group" şirkəti və "Sansar" supermarketlər şəbəkəsi arsında meyvə şirələri və konservləşdirilmiş məhsulların ixracına dair danışıqlar aparılıb.

Azərbaycanın İKT sahəsində fəaliyyət göstərən Cybernet, Sinam, Neuron Technologies və AZİNNEX şirkətlərinin təklif etdiyi xidmətlər Moqolsutan iş adamları və dövlət qurumlarının nümayəndələri tərəfindən böyük maraqla qarşılanıb.





23 -27 oktyabr 2018

## Türkiyə Respublikasına ixrac missiyası

Türkiyə Respublikasının İstanbul şəhəri

**Azərbaycan tərəfindən iştirak:**

Qida, inşaat və tikinti materialları, mebel istehsalı, turizm, yüngül və kimya sənayesi sahələrində fəaliyyət göstərən 19 Azərbaycan şirkəti

**Nəticələr:**

Missiya çərçivəsində Naxçıvan Muxtar Respublasında fəaliyyət göstərən Azərbaycan sahibkarları türkiyəli həmkarları ilə ikitərəfli görüşlər keçirib, yerli məhsulların Türkiyəyə ixracının genişləndirilməsinə dair



müzakirələr aparıblar. Görüşlər zamanı türk iş adamlarına təqdim olunan Azərbaycan məhsulları türk şirkətləri tərəfindən maraqla qarşılanıb və ixraca dair ilkin razılıqlar əldə olunub. Belə ki, Azərbaycanın "Farma-Şah" MMC şirkəti ilə Türkiyənin müvafiq şirkəti arasında Azərbaycan çayının Türkiyəyə ixracına dair razılığa gəlinib. Bundan başqa, "Naxçıvan Sement Zavodu" MMC ilə "BASF Türkiyə" şirkəti arasında sement istehsalında qatqı kimi istifadə olunan xammalın ixracı ilə bağlı danışıqlar aparılıb. Türkiyənin "Koç Mermer Granit" şirkətinin tikinti layihələri üçün Azərbaycanın "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" MMC-nin məhsullarından istifadə olunmasına dair razılaşma əldə olunub. "Cahan Pen" MMC və "Cahan Sənaye Kompleksi" MMC şirkətləri ilə Türkiyənin "Gema" və "Marmara" plastik qapı pəncərə istehsalı müəssisələri arasında məhsulların satışına və xammalın alınmasına dair danışıqlar aparılıb.



6-9 noyabr 2018

## Bolqarıstan Respublikasına ixrac missiyası

Bolqarıstan Respublikasının Sofiya şəhəri

**Azərbaycan tərəfindən iştirak:**

Missiyaya meyvə şirələri və digər sərinləşdirici içkilər, şərab və digər spirtli içkilər, mineral sular, limonadlar, qənnadı məmulatlar, bal və bal məhsulları, konservləşdirilmiş məhsullar, təbii bitki çayları sahəsində fəaliyyət göstərən 25 Azərbaycan şirkəti

**Nəticələr:**

Azərbaycan şirkətləri tərəfindən təqdim olunan məhsullar Bolqarıstan şirkətləri tərəfindən maraqla qarşılanıb. Belə ki, Azərbaycanın "Kaslar" MMC şirkəti ilə Bolqarıstanın "Stil Agro" LTD, "My Day" LLC və "KaPousouz" şirkətləri arasında fındığın ixracına dair ilkin razılıq əldə olunub.

Bundan əlavə, Azərbaycanın "Tac" MMC (Aquavita) şirkəti ilə Bolqarıstanın distribütor şirkətləri arasında nar və heyva limonadların ixracına dair müzakirələr aparılıb. Azərbaycanın "Baku Konserv" QSC şirkəti ilə Bolqarıstanın distribütor "Dikotex"

şirkəti arasında təbii nar şirəsinin Bolqarıstana ixracına və üçüncü Avropa ölkələrinə çıxışına dair danışıqlar aparılıb. Azərbaycanın "Banu Organic" MMC, "Ayan" MMC, "Sun Food" MMC şirkətləri istehsal etdikləri məhsulların ixracına dair Bolqar şirkətləri ilə razılığa gəliblər.

İxrac missiyası çərçivəsində həmçinin, "Şirin Aqro" MMC şirkəti ilə Bolqarıstanın "Kafkas" şirkəti arasında müxtəflif növ meyvə və tərəvəzin böyük həcmdə ixracına dair müzakirələr aparılıb, Azərbaycanın "Az-Granata" MMC şirkəti nar şirəsinin Bolqarıstana ixracına, eləcə də məhsullarının "Metro" supermatketlərində yerləşdirilməsinə dair razılıq əldə edib.





11-16 noyabr 2018

## Çin Xalq Respublikasına ixrac missiyası

Çin Xalq Respublikasın Şanxay şəhəri

**Azərbaycan tərəfindən iştirak:**

Missiyaya Şərab və digər spirtli içki məhsulları sahəsində fəaliyyət göstərən 16 Azərbaycan şirkəti daxil olub.

**Nəticələr:**

Azərbaycanın "A+Co" şirkəti vodka və "Merlot" növlü şərabın ixracına dair razılıq əldə edilib.

"Cəlilabad Şərab-2" şirkəti Pekindən olan iri idxalçı şirkətlə şərabın ixracına dair ilkin danışıqlar aparıb.

"Tovuz Baltiya" nar şərabı, nar brendi və digər meyvələrdən hazırlanmış spirtli içkilərin satışına dair Çində fəaliyyət göstərən 2 şirkətlə ilkin müzakirələr aparılıb.

Azərbaycanın "Şərq Ulduzu" şirkəti konyak və şərabın ixracına dair Şanxay və Pekindən olan 1 şirkətlə ilkin razılığa gəlinib, 3 şirkətlə isə danışıqlara başlanılıb.



27-30 noyabr 2018

## Almaniya Ferderativ Respublikasına ixrac missiyası

Almaniya Ferderativ Respublikasının Berlin şəhəri

**Azərbaycan tərəfindən iştirak:**

Qida məhsulları, tekstil və mebel sənayesi sahələrində fəaliyyət göstərən 28 Azərbaycan şirkəti

**Nəticələr:**

İxrac missiyası Berlin şəhərində fəaliyyət göstərən "Rewe" mağazalar şəbəkəsində olub, Azərbaycan məhsullarının satışına dair müzakirələr aparıblar.

Alman şirkətləri tərəfindən Azərbaycanın bir sıra məhsullarına, xüsusilə nar şərabı, nar şirəsinə və quru meyvələrə xüsusi maraq göstərilib.

Azərbaycan iş adamları alman həmkarları ilə Azərbaycanda istehsal olunan heyvandarlıq və konserv məhsullarının, şərabın, nar və nardan hazırlanan digər məhsulların Almaniyaya ixracına dair danışıqlar aparıblar.



8-11 dekabr 2018

## Birləşmiş Ərəb Əmirlikləri ixrac missiyası

Birləşmiş Ərəb Əmirlikləri Abu-Dabi və Şarja şəhərləri

**Azərbaycan tərəfindən iştirak:**

Boya, bağ mebeli, plastik borular və fitinqlər, turizm, tekstil, nar şirəsi, fındıq, konserv məhsulları, çay, mineral sular sahələrində fəaliyyət göstərən 28 Azərbaycan şirkəti

**Nəticələr:**

Azərbaycanın "Khan-El" şirkəti Birləşmiş Ərəb Əmirliklərinin Abu Dabi şəhərində "Haghanyat General Trading" şirkəti ilə fındıq məhsulunun ixracına dair müqavilə imzalayıb. Müqaviləyə əsasən artıq ilkin olaraq 100 min USD dəyərində 20 ton məhsul BƏƏ-ə ixrac edilib. Ümumilikdə, missiya çərçivəsində təqdim olunan Azərbaycan məhsulları xarici sahibkarlar tərəfindən böyük maraqla qarşılanıb, yerli məhsulların Birləşmiş Ərəb Əmirliklərinə ixracına dair əhəmiyyətli danışıqlar aparılıb.






12-14 dekabr 2018

## Səudiyyə Ərəbistanı Krallığına ixrac missiyası

Səudiyyə Ərəbistanı Krallığının Ər-riyad şəhəri

**Azərbaycan tərəfindən iştirak:**

Boya, bağ mebeli, plastik borular və fitinqlər, turizm, tekstil, nar şirəsi, fındıq, konserv məhsulları, çay, mineral sular sahələrində fəaliyyət göstərən 26 Azərbaycan şirkəti

**Nəticələr:** Missiya çərçivəsində istehsal olunan məhsullara xarici şirkətlər tərəfindən böyük maraq göstərilib. Belə ki, Azərbaycanda istehsal olunan fındıq, nar şirəsi, , konserv məhsulları, çay və s. məhsulların Səudiyyə Ərəbistanına ixracına dair danışıqlar aparılıb və əhəmiyyətli nəticələr əldə olunub. Turzim sahəsində təklif olunan xidmətlər də xarici şirkətlərin diqqətini cəlb edib. "New Era Travel" turizm şirkəti "Al Awadh Travel World" turizm şirkəti arasında aparılmış danışıqlara əsasən ümumilikdə təqribi ticarət dövriyyəsi **120 000 ABŞ** dolları həcmində (təqribi sayı 300-320 nəfərdən ibarət) ardıcıl turist qruplarının yay mövsümü ərzində Səudiyyə Ərəbistanı Krallığından Azərbaycana göndərilməsi planlaşdırılır.



# İxrac təşviqinin geri ödənilməsi

2018-ci ilin yanvar-dekabr aylarında ixrac təşviqinin ödənilməsi ilə məhsullar əsasən ABŞ, Avstraliya, Almaniya, Belarus, Böyük Britaniya, BƏƏ, Cənubi Koreya, Çin, Gürcüstan, Ukrayna, Latviya, Litva, Polşa, Rusiya, Malayziya, Kanada, Moldova, Çexiya, Estoniya, İtaliya, İsrail, İran, İsveç, Səudiyyə Ərəbistan, Türkmənistan, Tacıkistan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Qətər, Yunanıstan, Yaponiya və Küveytə ixrac olunub.

İndiyədək sahibkarlara **8 017 560,76 manat**, bu ilin yanvar - dekabr aylarında isə **4.9 mln manat** ixrac təşviqi ödənilib.

İxracın təşviqi istiqamətində görülmüş işlər
**2018-ci il, yanvar - dekabr ayları**

**4 947 685,54 AZN**
**İxrac təşviqinin məbləği**

**72 282 836,08 USD**
**İxrac olunmuş məhsulların dəyəri**

**747** **məktub**

**761** **müraciət**

## Qeyri-neft məhsulları üzrə ixrac təşviqinin ödənilməsi

1 yanvar - 28 dekabr 2018-ci il

- Qabığı təmizlənmiş meşə fındığı — 1 342 594,97 AZN
- Təzə xurma və təzə nar — 1 116 680,94 AZN
- Konserv məhsulları, şirələr, mürəbbələr, souslar — 872 373,57 AZN
- Üzüm şərabları və digər spirtli içkilər — 825 698,15 AZN
- Pambıq ipliyindən hazırlanan məmulatlar — 479 273,61 AZN
- Digər məhsullar — 163 430,88 AZN
- Qovurulmuş fındıq ləpəsi — 147 633,42 AZN



# İxrac təşviqinin geri ödənilməsi qaydaları

"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 6 oktyabr tarixli 401 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-cı il 25 iyun tarixli 276 nömrəli qərarı ilə İxrac təşviqi şamil olunacaq qeyri-neft məhsullarının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə siyahısında dəyişilik əlavələr edilmişdir.

## Dəyişilmiş məhsullar və kodları :

Məhsulun kodu | 0407

**Quş yumurtası**

Məhsulun kodu | 0802 22

**Qabığı təmizlənmiş meşə fındığı**









Məhsulun kodu | 1509 90

**Digər zeytun yağı və onun fraksiyaları**

Məhsulun kodu | 2206

**Üzüm şərabları istisna olmaqla, digər meyvə çaxırları, o cümlədən nar çaxırı**

# Bazar araşdırması



Bazar araşdırması qeyri-neft məhsullarının ixracı üçün mövcud və yeni ixrac bazarlarına çıxış imkanlarının tədqiq olunaraq genişləndirilməsi məqsədi ilə təşkil olunan dəstək tədbiridir.

Xarici bazarların, xüsusi ilə ənəvəvi bazarların mövcud vəziyyətinin və gələcək perspektivlərinin ətraflı təhlil edilməsi, ənənəvi bazarlarda ölkənin mövqeyinin daha da möhkəmləndirilməsi və yeni bazarlara çıxışının təmin edilməsi  məqsədi ilə İqtisadiyyat Nazirliyi tərəfindən xarici bazarların araşdırılması ilə bağlı ixracla məşğul olan sahibkarların qiymətləndirilmiş və təsdiqlənmiş müraciətləri əsasında hesabat dövründə 2  bazar araşdırması aparılıb:

Belarus Respublikasının spirtli içkilər bazarına dair araşdırması 1

2 Belarus Respublikasının lak və boya məhsulları bazarına dair araşdırması

Qeyd edək ki, ümumilikdə indiyədək **12** bazar araşdırması aparılıb.

# İxracatçılar Klubu

**"İxracatçılar Klubu " 2014-cü ildə AZPROMO tərəfindən yerli qeyri-neft məhsullarının ixracına operativ dəstək və ixracatçılarla münasibətlərin sistematik qaydada idarə edilməsi məqsədilə yaradılıb.**

"İxracatçılar Klubu" çərçivəsində mütəmadi olaraq məhsullarını ixrac etmək istəyən, istehsal və ixrac prosesləri zamanı müxtəlif problemlər və çətinliklərlə üzləşən ixracatçıların və əlaqədar dövlət qurumlarının iştirakı ilə müxtəlif yığıncaqlar, iclaslar keçirilir.

Hal-hazırda "İxracatçılar Klubu"nun 150-ə yaxın üzvü vardır.

**2018-ci ilin yanvar-dekabr aylarında "İxracatçılar Klubu"nun 23 iclası keçirlib.**

Cari ilin 12 yanvar tarixində İxracatçılar Klubunun 2018-ci ildə ilk iclası və "Made in Azərbaijan" loqosunun təqdimatı keçirilmişdir. Tədbirdə rəsmi şəxslərlə yanaşı, iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən 100-ə yaxın iş adamı iştirak etmişdir. İclasda qeyri-neft ixracının coğrafiyasının genişləndirilməsi, ənənəvi bazarlarda Azərbaycan məhsullarının mövqelərinin daha da gücləndirilməsi, "Made in Azerbaijan" brendinin dünyada tanıdılması istiqamətində görülən işlər barədə məlumat verilmiş, bu istiqamətdə dəstək mexanizmlərinin uğurla həyata keçirildiyi bildirilmişdir.





**20** iclas — Bakı şəhərində

**3** iclas — regionlarda

**2** iclas Şəki-Zaqatala iqtisadi rayonunda

**1** iclas Naxçıvan MR-da



# Yerli İstehsalçıların və İxracatçıların Assosiasiyaları

İxracın təşviqi istiqamətində effektiv nəticələrə nail olmaq və ixrac sahəsində koordinasiyalı və sistemli irəliləyiş əldə etmək məqsədilə AZPROMO-nun təşəbbüsü ilə 2018-ci ildə də Assosiasiyaların yaradılması fəaliyyəti davam etdirilir.

2018-ci ilin yanvar-dekabr aylarında **"Azərbaycan Süd və Süd Məhsulları İstehsalçıları və İxracatçıları Assosiasiyası", "Azərbaycan Mebel İstehsalçıları Assosiasiyası" , "Zeytun İstehsalçıları və İxracatçıları Assosiasiyası", "Çay İstehsalçıları və İxracatçıları Assosiasiyası", "Xurma İstehsalçıları və İxracatçıları Assosiasiyası" və "Maşın və avadanlıq İstehsalçıları Assosiasiyası"** yaradılıb.



**"Azərbaycan Süd və Süd Məhsulları İstehsalçıları və İxracatçıları Assosiasiyası"** 2018-ci ilin yanvar ayının 26-da yaradılıb. Assosiasiyanın yaradılmasında əsas məqsəd ölkə ərazisində mövcud olan aparıcı süd və süd məhsulları istehsalçılarını və ixracatçılarını bir yerə yığmaq, birləşmiş səylərlə istehsalat həcmlərini qaldırmaq, innovativ texnoloji üsullardan istifadə edərək süd məhsullarının maya dəyərini azaltmaq və məhsulun keyfiyyətini qaldırmaqdır.

**"Azərbaycan Mebel İstehsalçıları Assosiasiyası"** cari ilin yanvar ayının 26-da yaradılıb. Assosiasiya mebel məhsullarının istehsalı və ixracı sahəsində fəaliyyət göstərən sahibkarlara dəstək vermək, iqtisadi və sosial inkişaf sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirləri təbliğ etmək, yerli istehsalçıların dəstəklənməsinə, mebel məhsullarının keyfiyyətinin artırılmasına və qiymətlərinin münasibliyinin təmin edilməsinə kömək etmək, mebel sanayesinin inkişafına, yeni texnologiyaların və beynəlxalq standartların tətbiqinə, müvafiq sahədə çalışan şirkətlərin və mütəxəssislərin biliklərinin artırılması məqsədi ilə yaradılıb.





**"Zeytun İstehsalçıları və İxracatçıları Assosiasiyası"** 2018-ci ilin 16 fevral tarixində yaradılıb. Assosiasiyanın məqsədi ölkədə zeytunçuluğun inkişafına yardım etməkdir. Bu istiqamətdə Assosiasiya zeytunçuluq təsərrüfatında istehsal mədəniyyətinin və səmərəliliyin artırılmasına, zeytun istehsalı və emalı sahəsində yeni texnologiyaların tətbiqinə, təbii resursların səmərəli istifadəsinə dəstək verir, zeytunçuluqla bağlı maarifləndirmə işi aparır.

**"Çay İstehsalçıları və İxracatçıları Assosiasiyası"** 2018-ci ilin 29 iyun tarixində yaradılıb. Assosiasiyanın yaradılmasında əsas məqsəd bu sahədə fəaliyyət göstərən sahibkarlara çayçılığın inkişafında dəstək vermək, istehsal və emal prosesləri ilə bağlı təcrübələrin və bacarıqların artırılmasında maarifləndirmə tədbirləri həyata keçirməkdir.





**"Xurma İstehsalçıları və İxracatçıları Assosiasiyası"** 2018-ci ilin 13 noyabr tarixində təsis edilib. Assosiasiya xurma istehsalı sahəsində fəaliyyət göstərən sahibkarlar arasında əlaqələrin genişləndirilməsi, yerli məhsulların xarici bazarlara çıxarılması istiqamətində mühüm əhəmiyyətə mailkdir.

**"Maşın və avadanlıq İstehsalçıları Assosiasiyası"** 2018-ci ilin 28 dekabr tarixində təsis edilib. Assosiasiyanın yaradılması maşın və avadanlıq istehsalı sahəsində sənaye müəssisələrinin fəaliyyətinin təşkili, korporasiya əlaqələrinin genişləndirilməsi və birgə əməkdaşlığın inkişafı istiqamətində əhəmiyyətli rol oynayır.



Qeyd edək ki, hal-hazırda fəaliyyət göstərən ictimai birliklər bunlardır :

- Azərbaycan Fındıq İstehsalçıları və İxracatçıları Assosiasiyası
- Azərbaycan Meyvə-Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyası
- Azərbaycan Çay İstehsalçıları və İxracatçıları Assosiasiyası
- Azərbaycan Qadın Sahibkarlığın İnkişafı Assosiasiyası
- Azərbaycan Qablaşdırma Assosiasiyası
- Xurma İstehsalçıları və İxracatçıları Assosiasiyası
- Azərbaycan Şərab İstehsalçıları və İxracatçıları Assosiasiyası
- Azərbaycan Nar İstehsalçıları və İxracatçıları Assosiasiyası
- Azərbaycn Tikinti Materialları İstehsalçıları Assosiasiyası
- Azərbaycan Turizm Assosiasiyası
- Azərbaycan Arıçılar Assosiasiyası
- Maşın və avadanlıq İstehsalçıları Assosiasiyası

Bu assosiasiyalar müvafiq olaraq meyvə-tərəvəz, nar, fındıq, şərab, çay, bal, tikinti məhsulları və s. kimi yüksək tələbatlı kənd təsərrüfatı və sənaye məhsullarının qlobal bazara çıxarılması və satışının təmin olunması, ixrac potensialının artırılması, beynəlxalq təcrübənin öyrənilməsi və xarici bazarlarda rəqabət qabiliyyətinin möhkəmləndirilməsi perspektivindən çıxış edir.

# Yeni tərəfdaşlıq əlaqələrinin qurulması

AZPROMO-nun ixracın və investisiyaların təşviqi sahəsində fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə mütəmadi olaraq beynəlxalq təcrübə nəzərdən keçirilir, qabaqcıl ölkələrin ixrac və investisiyaların cəlb olunması siyasəti, ixracatçılara və investorlara dəstək mexanizmi öyrənilir. İxracın və investisiyaların təşviqi sahəsində fəaliyyətin genişləndirilməsi, həmçinin, yerli məhsulların xarici bazarlarda potensial alıcısının tapılmasına və xarici investorların cəlb olunmasına dəstək məqsədilə Azərbaycanın xaricdə səfirlikləri və tərəfdaşlarla geniş əməkdaşlıq edilir və yeni əlaqələr qurulur.

**Bundan əlavə hesabat dövründə beynəlxalq tərəfdaşlarla əməkdaşlığın genişləndirilməsi məqsədilə AZPROMO ilə müvafiq tədbirlər çərçivəsində aşağıdakı Anlaşma Memorandumları imzalanıb:**



## 9 ÖLKƏ 13 QURUM

**EDA** - 22 fevral 2018-ci il
**GAFİ** - 22 fevral 2018-ci il

**Misir** 1

**Cənubi Afrikanın Ankaradakı Səfirliyi**
28 fevral 2018-ci il

**Cənubi Afrika** 2

**PHD Ticarət və Sənaye Palatası**
13 mart 2018-ci il

**Hindistan** 3

**"KazakhExport" İxracın Sığortalanması Şirkəti** 23 may 2018-ci il

**Qazaxıstan** 4

**Pakistanın Ravalpindi Ticarət və Sənaye Palatası (RCCİ)**- 4 iyul 2018-ci il

**Pakistan** 5

**Tacikistanın İnvestisiyalar və Dövlət Əmlakının İdarəedilməsi üzrə Dövlət Komitəsi**- 10avqust 2018-ci il

**Tacikistan** 6

**Çinin "YEMA GROUP" şirkəti**
2 sentyabr 2018-ci il
**Çinin "Eastern Allfriends" şirkəti**
6 noyabr 2018-ci il
**"Greenland Zhongxuan" Beynəlxalq Ticarət Şirkəti**
8 noyabr 2018-ci il
**Çinin "Shanghai Jizhi Investment Management" şirkəti arasında "Greenland Global" Ticarət Mərkəzində sərgi pavilyonunun icarəsinə dair Müqavilə**
8 noyabr 2018-ci il

**Çin** 7

**Rusiya-Azərbaycan İşgüzar Şurası**
27 sentyabr 2018-ci il

**Rusiya** 8

**La Cité du Vin şərab muzeyi**
19 oktyabr 2018-ci il

**Fransa** 9

# İqtisadi göstəricilər

2018-ci il yanvar-dekabr aylarında
Azərbaycan Respublikasının
xarici ticarət əlaqələri haqqında

Xarici iqtisadi fəaliyyət iştirakçıları
**25 123**

Tərəfdaş ölkələr
**185**

İxrac olunan məhsul çeşidlərinin sayı
**3 088**

Qeyri-neft ixracı
**1,69 mlrd $**
9,8% artım

Kənd təsərrüfatı və emalı
**827,1 mln $**
13,8% artım

Sənaye
**862,0 mln $**
6,2% artım



Məhsulların ixrac həcminə görə

# hesabatı

2018-ci il yanvar-dekabr aylarında

**İxrac cəmi** 19,46 mlrd $

| Qeyri-neft məhsulları ixracı | Neft-qaz məhsulları ixracı |
|---|---|
| 1,69 mlrd $ | 17,8 mlrd $ |

Kənd təsərrüfatı və emalı məhsulları ixracı 827,1 mln $

Sənaye məhsulları ixracı 862,0 mln $




**Tərəvəz ixracı** 233,31 mln

| Məhsul | Həcm |
|---|---|
| Pomidor | 177,38 mln |
| Kartof | 29,63 mln |
| Salat tərəvəzi | 3,73 mln |

**Meyvə ixracı** 326,31 mln

| Məhsul | Həcm |
|---|---|
| Xurma | 114,54 mln |
| Albalı və gilas | 38,41 mln |
| Alma | 38,04 mln |
| Nar | 12,07 mln |

# Sənaye məhsulları ixracı

2018-ci il
yanvar-dekabr
aylarında






azpromo

www.azpromo.az